## AMBERD QALA-QƏSRİ VƏ MƏBƏDİ



**Amberd türk qalasının görünüşü (XI yüzil)**

Əştərək rayonu ərazisində, Alagöz dağının cənub ətəyində, Arxaşan çayı kənarında qala-qəsr və məbəd.

Pəhləvuni knyazlarının nəsil mülkü olan məbəd Ərməniyənin günümüzə qədər gəlib çıxmış tək-tək feodal qəsrlərindən biridir. Əslində bu qala VII yüzildən mövcud olmuş, XI yüzildə yenidən inşa edilmiş, XIII yüzildə isə qəsrdə güclü yanğın olmuşdur.

Amberd məbədi isə 1026-cı ilin yadigarıdır.

Qalanın adı türkcədir və **"ana qala"**, **"baş qala"** anlamına gəlir.

Qala-qəsrin özü kimi, ətrafında yerləşən yaşayış məntəqələri də qədimdən Türk-Oğuz boylarının anauyrdu olmuşdur. Bu ərazilərə ilk ermənilər XVI-XVIII yüzillərdə ticarətlə və mövsümi qara işlərlə məşğul olmaq üçün gəlmişlər.



## CƏFƏRABAD // PİR HÜSEYN TÜRBƏSİ



**Cəfərabad // Pir Hüseyn türbəsinin əsl görkəmi (XV yüzil)**



**Cəfərabad // Pir Hüseyn türbəsi gümbəzi dağılmış halda**

Zəngibasar mahalında, Zəngibasar rayonunun mərkəzi olan Uluxanlı qəsəbəsindən 14 km şimalda, İrəvan şəhəri yaxınlığında yerləşən Cəfərabad kəndində qırmızı tuf daşdan inşa edilmiş səkkiztilli türbə.

Qaraqoyunlu əmirlərinin sərdabəsi üstündə ucaldılan türbənin hündürlüyü günbəzsiz 12 m olmuşdur. Türbəni yuxarıdan kəmərvarı əhatə edən 22 m uzunluğunda ərəbdilli kitabədə Çuxur Səd vilayətinin Saatlu (Sakadlı) tayfasından olan əmirləri **Pir Hüseyn** və atası **Əmir Səədin** (1411 -ci ildə vəfat etmişdir) adları çəkilmişdir. Başqa sözlə, kitabədə yazılıb ki, bu günbəzli müqəddəs sərdabə böyük hökmdar **Pir Budaq xanın** və **noyon Yusifin** padşahlığında **Əmir Səədin oğlu Pir Hüseynin** əmri ilə hicri tarixlə 816-cı il rəcəb ayının 15-də **(miladi tarixlə 1413-cü il oktyabrın 11-də** - Ə.Ə.) tikilmişdir.

Türbə **Pir Hüseyn türbəsi** kimi də tanınırdı.

1828-ci ilə qədər kənddə ancaq Azər türkləri, 1830-cu illərdən etibarən isə İrandan köçürülüb gətirilmiş ermənilər yaşamışlar.

KAMİL DƏRƏLƏYƏZLİ

*Bura, bizim Qərbi azərbaycanlıların ata yurdu, ana vətənimizdir!*




# QƏRBİ AZƏRBAYCAN ZİYALILARI: GÖRKƏMLİ DÖVLƏT, MƏDƏNİYYƏT VƏ ƏMƏK XADİMLƏRİ

Erməni tarixçisi M.Abeqyan "Erməni xalqının əsli kimdir, necə və nə vaxt, haradan və hansı yollarla o, buraya gəlib (Ermənistana), erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dininə və etnik tərkibinə kim, necə təsir göstərib? Bu amilləri və erməninin kimliyini sübut etmək üçün, əlimizdə dəyərli, dəqiq və aydın dəlillər yoxdur". Kitabın üz qabığı müəllifə məxsusdur.

Bakı – 2025

**Elmi redaktor:** **Cəbi Bəhrəmov**
**Tarix üzrə fəlsəfə doktoru, professor**

**Məsul radaktor:** **Bəxtiyar Həsənov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**

**Rəyçilər:** **Nazim Mustafayev**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**

**Elmar Məhərrəmov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**

**Korrektor:** **Tamara Məmmədova**

**Kamil Məmmədov.**
**Qərbi Azərbaycan ziyalıları görkəmli dövlət, elm, mədəniyyət və əmək xadimləri. – Bakı: "Azəri" poliqrafiya 2025. – 544 s.**

*Kitabda mənbələrə əsaslanan Qərbi Azərbaycanda dünyaya göz açan, əmək fəaliyyətlərinin bir hissəsini doğulduqları doğma torpaqlarda gerçəkləşdirən ziyalıları, görkəmli dövlət, elm və mədəniyyət xadimlərinin həyat və fəaliyyətindən bəhs edilir. Müəllif tərəfindən əldə edilən fotoşəkillər də kitaba daxil edilmişdir.*

ISBN 978-9952-605-24-2

9 789952 605242

$D\frac{525000-1075}{1126-09}M$

**@ K.Məmmədov. AMEA TEİ, 2025**



Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız, ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

***"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSRİ ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı"***

***18 dekabr, 1997-ci il"***



Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi Qərbi azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə nəticəyə hesablanmış tərzdə aparacaqdır.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin***
***Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqindən***
***24 dekabr 2022***



# ELMİ REDAKTORDAN

Qərbi Azərbaycan ən qədim zamanlardan bu günədək tarixi Azərbaycan torpaqlarının tərkib hissəsi olub milli tariximizin qızıl səhifəsini təşkil edir. Bu ərazi qədim dövrlərdən başlayaraq XX əsrin sonunadək Ümum Azərbaycan milli mədəniyyətinin və ziyalılığının yarandığı və formalaşdığı bir məkan olub. Bu torpaqda Azərbaycan milli dövlətçilik, elm, mədəniyyət tarixində müstəsna yerləri və xidmətləri olan şəxslər dünyaya göz açıb. Onların həyatı və fəaliyyəti gələcək nəsillər üçün bir örnək hesab olunur. Onların hər biri müxtəlif dövrlərdə İrəvan şəhəri başda olmaqla Qərbi Azərbaycanın müxtəlif bölgələrində anadan olmuş orta, ali təhsil almış və Azərbaycan xalqının həyatının müxtəlif sahələrində çalışmış, milli tariximizdə silinməz iz buraxmışlar. Bütün bu söylənən fikirləri özündə əks etdirən Qərbi Azərbaycan torpağında dünyaya göz açmış bir neçə şəxsiyyətin-elm, mədəniyyət, dövlət xadimlərinin həyat və fəaliyyətlərinə həsr olunan əsərlər yazılıb nəşr edilmişdi. **Müəllif Kamil Məmmədovun (Dərələyəzlinin) üzərində uzun illər çalışaraq yazıb hazırladığı "Qərbi Azərbaycan ziyalıları: görkəmli dövlət, elm, mədəniyyət və əmək xadimləri" kitabı** bu baxımdan yeni bir əsərdir və faktlar, sənədlər əsasında yazılıb. Yuxarıda qeyd olunduğu kimi burada İrəvan şəhəri başda olmaqla Qərbi Azərbaycanda doğulub boya-başa çatmış, dünyasını dəyişən, hazırda həyatda olan və fəaliyyət göstərən görkəmli şəxsiyyətlər haqqında məlumatlar öz əksini tapmışdır.

**Cəbi Əmirvar oğlu Bəhrəmov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**

## ÖN SÖZ

Bildiyimiz kimi bu günkü Qərbi Azərbaycan ərazisində ermənilərin peyda olması və hazırda yaranmış monoetnik erməni toplumunun o ərazilərə yerləşməsi 1441-ci ildən **Cahanşahın** hakimiyyəti illərindən başlayaraq Üçkilsə ərazisinin erməni din xadiminə verilməsi ilə Erməni-qriqoriyan kilsəsinin bu günkü Türkiyə ərazisindən olan **Kilikya**dan indiki **Üçkilsəyə** köçürülməsi ilə başlamışdı.

Ancaq bu ərazilər qədim dövrdən günümüzə qədər Azərbaycan türklərinin yaratdığı dövlətlərin tərkibində mühüm yer tutmuş və bu ərazidə ilk bəylərbəylik 1501-ci ildə Azərbaycan Səfəvi dövlətinin yaranmasından sonra mərkəzi İrəvan şəhəri olan Çuxursəəd bəylərbəyliyi olmuşdur. Qərbi Azərbaycan torpaqları Əfşarlar imperiyasının yaranmasına kimi əsasən Çuxursəd bəylərbəyliyi və yaxud Çuxursəəd bölgəsi olaraq adlanmış və bu bəylərbəyliyin hakimləri onu idarə edənlər Azərbaycan türkləri olmuşdur. Nadir Şah Əfşarın öldürülməsindən sonra imperiyanın çökməsi bölgədə 1747-ci ildə Mirmehdi xanın başçılığı ilə yeni bir dövlət qurumunun İrəvan xanlığının yaradılmasına səbəb oldu. İrəvan xanlığının sonuncu xanı Hüseynqulu xanın (1806-1827) hakimiyyəti illərində çar Rusiyasının hücumlarına məruz qalan xanlıq ərazisi düşməndən mərdliklə müdafiə olunsa da qüvvələrin qeyri bərabərliyi İrəvan xanlığının işğal olunmasına səbəb oldu. 1827-ci ildə çar Rusiyasının İrəvan xanlığını işğal etməsi ilə bu ərazilərə ermənilərin kütləvi köçürülməsinin yeni mərhələsi başladı. 10 fevral 1828-ci ildə Türkmənçay müqaviləsinin imzalanmasından sonra Şimali Azərbaycan o cümlədən onun Qərb torpaqları rəsmən Çar Rusiyasının hakimiyyəti altına keçdi. Bu torpaqlar üçün ilk verilmiş qərar 21 mart 1828-ci ildə I Nikolayın (1825–1855-ci illər) fərmanı ilə "Erməni vilayəti"nin yaradılması oldu. İmperator I Nikolayın ermənilərin xeyrinə verdiyi qərarlardan biri də Erməni-qriqoriyan kilsəsinə (1836) önəmli səlahiyyətlər verilməsi oldu. 1837-ci ildə I Nikolayın Qafqaza səfər zamanı Gümrüyə gələrək orada Müqəddəs Aleksandr kilsəsinin təməlini qoyur. Elə bundan sonra Gümrü Aleksandropol adlanmağa başlayır. 1840-cı ildə Erməni vilayəti ləğv edilmiş və Gürcü-İmereti quberniyasının tərkibində İrəvan qəzası



yaradılmışdır. 1849-cu ildə isə İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində İrəvan quberniyası yaradıldı. İrəvan Quberniyası dövründə 1905–1906-cı illərdə ermənilər bu ərazilər də daxil olmaqla Cənubi Qafqazda azərbaycanlıları kütləvi qırğınlara məruz qoydular. Əhalinin böyük bir hissəsi öz doğma ata-baba yurdlarını tərk etməyə məcbur edilərək öz evlərini tərk etməli oldular. Bu qırğınların qarşısı bir müddət alınsa da I Dünya müharibəsinin başlaması ilə erməni daşnakları yenidən fəallaşmağa başladı. Belə ki, həm bolşeviklərlə, həm də Avropa dövlətləri ilə iş birliyi yaradan erməni siyasi təşkilatları Cənubi Qafqazda fəallaşaraq bir erməni dövləti yaratmaq uğrunda mübarizəyə başladı. Cənubi Qafqazda müstəqil bir dövlət yaradılmasına dəstək verən bolşeviklər erməni əsilli Stepan Şaumyanın Bakını ələ keçirməsinə şərait yaradaraq S.Şaumyanı Bakıya fövqəladə komissar təyin etdilər. Stepan Şaumyan bolşevik-daşnak birləşmələri ilə əlbir olaraq 31 mart və 1 aprel 1918-ci il tarixlərində Cənubi Qafqazda Azərbaycan türklərinə qarşı bir soyqırımı həyata keçirdi. Bütün bunlara baxmayaraq Azərbaycan türklərinin apardığı mübarizə 1918-ci ilin may ayının 29-da qələbə ilə nəticələndi və Azərbaycan türkləri dövlət sistemini bərpa edərək Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasını elan etdilər. AXC-nin yaranmasından sonra ermənilər özlərinə Cənubi Qafqazda dövlət yaratmaq üçün bir mərkəz tələbi ilə çıxış edərək Qərbi Azərbaycan torpaqlarının bir hissəsini İrəvan şəhəri mərkəz olmaqla 9 min kv kilometr ərazini Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin irəli sürdüyü şərtlərlə yəni ermənilərin Yelizavetpol (Gəncə) quberniyasının dağlıq hissəsinə Zəngəzur, Qarabağ və Naxçıvana olan iddialarından əl çəkməsi müqabilində yeni yaradılmış Ararat Respublikasına güzəştə getdilər. Bu qərarın verilməsindən bir-neçə gün keçmiş erməni hərbi birləşmələri Zəngəzura yeridildi və Ararat Respublikasının rəhbərliyinin iştirakı ilə Qarabağ ərazilərində erməni əhali arasında təbliğat-təşviqat işləri aparılmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin tələblərinə baxmayaraq ermənilər verdikləri vədlərə əməl etməkdən boyun qaçırdılar. Bu da İrəvan və ətraf ərazilərin ermənilərə güzəştə gedilməsi haqqında verilmiş bu qərarın nə qədər yanlış olduğunu açıq göstərdi.

1920-ci ilin aprel ayında Bolşevik Rusiyasının Azərbaycan Xalq Cümhuriyyətinin işğal etməsi ilə AXC-nin ərazilərinin bir qismi ardıcıl olaraq Dərələyəz, Qərbi Zəngəzur və Göyçə mahalları bolşe-

viklər tərəfindən ermənilərə verildi.

Bununla da bu ərazilərdə yaşayan yerli azərbaycan türklərinin böyük bir hissəsi öz doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qaldılar.

Nəhayət Sovet Rusiyası dövründə 1948-1955-ci illər və son olaraq 1989-1991-ci illər deportasiyaları zamanı ermənilər Sovet hökumətinin dəstəyi ilə azərbaycan türklərini Qərbi Azərbaycan ərazilərindən öz ata-baba yurdlarından son nəfərinə qədər çıxardılar.

Kamil Dərələyəzlinin ayrı-ayrı mənbələr əsasında yazdığı **"Qərbi Azərbaycan ziyalıları: görkəmli dövlət, elm, mədəniyyət və əmək xadimləri"** kitabında əsasən iki yüz ilə yaxın bir dövrdə öz ata-baba yurdundan qovulmuş və sonradan Azərbaycan dövlətinin inkişafında ayrı-ayrı sahələrdə fəaliyyət göstərmiş, həmçinin öz ata-baba yurdları uğrunda mübarizə aparmış və hazırda aparan Qərbi Azərbaycan ziyalıları, dövlət və elm xadimləri haqqında geniş məlumat verilmişdir.

Burada adları keçən və keçməyən hər bir Qərbi Azərbaycanlının ailəsinin fərdləri ermənilər tərəfindən ya öldürülmüş, ya da öz dədə-baba yurdundan qovularaq didərgin halına salınmışdır.

Çar Rusiyası və Sovet Rusiyasının dəstəyi ilə 1828-ci ildən başlayıb 1988-1989-cu illərdə başa çatan "Türksüz Ermənistan" siyasəti sayəsində Qərbi Azərbaycanda (indiki Ermənistan ərazisi) azərbaycan türklərinin inşa etdikləri 2000-ə yaxın yaşayış məskəninə ya ermənilər yerləşdirildi ya da ermənilər tərəfindən dağıdılaraq xarabalığa çevrildi. Bir milyona yaxın azərbaycanlı öz doğma ocağından qaçqın düşdü. 100 mindən çox günahsız və silahsız soydaşımız qətlə yetirildi.

Azərbaycan dövlətinin qədim dövrdən varlığını şübhə altına almağa çalışan xarici qüvvələrə, həmçinin ermənilərə qarşı Əslən Qərbi Azərbaycandan olan tanınmış insanlar istər siyasi mübarizədə, istərsə də elm sahəsində öz mübarizələrini həmişə davam etdirmişlər, hazırda da davam etdirməkdədirlər. Bu baxımdan Qərbi Azərbaycandan olan ziyalılar haqqında yazılmış bu kitab çox əhəmiyyətlidir.

Belə ki, Azərbaycan xalqının dünya siyasətinə bəxş etdiyi böyük dövlət adamı, dahi siyasətçi bu günkü Azərbaycanın qurucusu Heydər Əliyevin də əsli Qərbi Azərbaycan kökənlidir. Onun ailəsi də digər Qərbi Azərbaycanlı ailələri kimi etnik təmizləməyə və soyqırımına məruz qalmışdır.

Orta əsrlərdən dövlətçiliyimizin qorunması və möhkəmlənməsi uğrunda həmçinin Qərbi Azərbaycan torpaqlarının qorunması uğrunda mübarizə aparmış bu dövlət, siyasət, elm, sənət və s. görkəmli adamlar Miskin Abdal, İrəvan xanları, Hüseynqulu xan Qacar, Şeyxülislam Fazil İrəvani, Aşıq Alı, Aşıq Ələsgər, Mirzə Qədim İrəvani, Teymur xan Makinski, Həbib bəy Səlimov, Azərbaycanın İstiqlal bəyannaməsini imzalayanlardan Əkbər ağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov və Nəriman bəy Nərimanbəyov, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin baş katibi Bağır bəy Rzayev, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nazirlər Şurasında məsul vəzifədə çalışan Rəşid bəy İsmayılov, Mustafa bəy Topçubaşov, görkəmli ictimai-siyasi və dövlət xadimi, elm və səhiyyə təşkilatçısı, Əməkdar həkim Əziz Əliyev, dövlət xadimi Maqsud Məmmədov, akademik Həsən Əliyev, dövlət xadimi Cəfər Vəlibəyov, akademik Heydər Hüseynov, ictimai xadim Həsən Seyidov, ədəbiyyatşünas alim Cəfər Xəndan, ictimai xadim Bağır Seyidzadə, akademik Mahmud Kərimov, akademik Budaq Budaqov, Professor Həsən Mirzəyev, akademik Əhliman Əmiraslanov, akademik Misir Mərdanov, akademik Rasim Əliquliyev və Qərbi Azərbaycanda doğulmuş və əslən o bölgədən olan ziyalılar, dövlət, elm və əmək xadimləri Azərbaycan mədəniyyətinə, elminə, incəsənətinə, təhsilinə böyük töhfələr vermiş və dövlətçilik sistemində ləyaqətlə xidmət etmişlər.

Dövlətimizin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup Qərbi Azərbaycandan olan ziyalı ilə keçirdiyi görüşdə Beynəlxalq qurumlara mesajlar verərək Ermənistan Respublikası adlanan dövlətin əzəli Azərbaycan torpaqlarında mövcudluğunu, bunu təsdiqləyən sənədlərin və xəritələrin əlimizin altında olduğunu və dünya ictimaiyyətinin bütün bunları bilməli olduğunu bildirdi. Prezident öz çıxışında qeyd etdi ki: "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar".

İrəvan ana babasının, Zəngəzur isə ata babasının yurdu olan Azərbaycan Respublikasının Prezidenti doğum gününü məhz Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə birgə qeyd edərək vurğuladı ki, Qərbi azərbaycanlılar heç vaxt öz ata-baba yurdlarına qayıtmaq inamlarını itirməməli, eyni zamanda addımlar atmalı, fəal olmalıdırlar.

Azərbaycan Respublikasının Prezidenti bu gün tək Azərbaycanın

və Qərbi Azərbaycanın deyil, eyni zamanda da Türk dünyasının problemlərinin həlli yolları barədə açıq şəkildə çıxışlar edir və öz fəaliyyətində bu çalarları göstərir.

Təbii ki, **Müəllif Kamil Məmmədovun (Dərələyəzlinin) üzərində uzun illər çalışdığı "Qərbi Azərbaycan ziyalıları: görkəmli dövlət, elm, mədəniyyət və əmək xadimləri"** kitabında Qərbi Azərbaycan kökənli ziyalıların hamısı haqda məlumat vermək o qədər də asan məsələ deyil, ancaq Kamil Dərələyəzlinin bu sahədə işıq üzü görmüş bir çox kitabını nəzərə alsaq tədqiqatçı öz təcrübəsindən istifadə edərək bu əsərində ciddi mənbələrə asaslanaraq belə bir kitabın ərsəyə gəlməsinə nail olmuşdur. Ümid edirik ki, Kamil müəllim gələcəkdə Qərbi Azərbaycanla bağlı yeni kitablarını oxuculara təqdim edəcəkdir.

**Bəxtiyar Kamil oğlu Həsənov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**






## XALQIN XİLASKARI

Həzrəti Məhəmmədin həyatı, başqa peyğəmbərlərin həyatından fərqlənən və müstəsna əhəmiyyət daşıyan bir həyat olmuşdur. Bu həyat oxunduqca, onunla yaxından tanış olduqca, insanın gözündə böyüyür, yüksəldikcə yüksəlir. Bu həyat məhəbbət, şəfqət, fəzilət və səmimiyyətlə yaşanmış bir həyatdır.

Başqa millətlər arasında yaşamağımıza baxmayaraq Heydər Əliyeva olan sevgimizin əsası 1963-cü ildən başlayaraq bu günə qədər davam edir və haqq dünyasına qədər davam edəcək. Ulu öndərə, dəryalardan dərin zəkaya sahib olan Heydər Əliyevə dərs deyən rəhmətlik Lətif Hüseynzadə hər vaxt, hər zaman İrəvan Pedaqoji İnstitutunda oxuyan Qərbi Azərbaycanlı tələblərinə Əliyevin dərsə davamiyyətindən, səmimiyyətindən, yaxşı oxumasından, millilik qürurundan söhbət edirdi.

Haylar dünya millətlərindən fərqli olaraq canlı aləmdə iblisdən əvvəl yaranmışdı. İlahi qüdrətinin nəzərindən kənarda qalmış, insani xüsusiyyətlərə layiq olmayan cılız hərəkətləri ilə öz məqsədlərinə nail olmaq üçün bütün hiylələrə əl atmağa qadir olan bir məxluqdur. Bu məxluqun müsəlmanlara qarşı, Azərbaycan xalqına, məmləkətinə qarşı törədilən soyqırım, zülmün son həddə çatmasından Tanrının xəbəri yox imiş. Ağsaqqal və ağbirçəklərin, ata-anaların duaları Tanrı tərəfindən qəbul olunur. Ağrı dağı kimi vüqarlı olan bir xalqın canından, qanından və genindən şahi-Mərdan timsallı bizim milli Həzrətimiz 10 may 1923-cü ildə (Heydər Əlirza oğlu doğuldu bəlkə də zühr elədi ki,) millətin və torpağın azadlığı uğrunda şəhid olanların qisasını alsın.

SSRİ-nin zülmətdə qalmış Azərbaycan respublikasına nurlu addımları ilə ayaq basan Heydər Əliyev Azərbaycan SSRİ-nin yeni konstitusiyasının layihəsini hazırlayaraq Azərbaycan dilinin Azərbaycan SSRİ-in dövlət dili olması haqqında maddənin respublika konstitusiyasına daxil edilməsinə nail olmuşdur. (iyul 1977). Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə idarəetmə mexanizminin və metodikasının təkmlləşdirilməsinə, norma və qaydalara ciddi əməl edilməsinə, əmək və ictimai-siyasi fəaliyyətin artırılmasına, kənd



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**